Nəşriyyatı evi, 2020, 768 səh.
2. Robbins S.P., Koulter M., DeSenzo D.A. İdarəetmənin əsasları (İngilis dilindən tərcümə). Bakı: TEAS Press Nəşriyyatı evi, 2019, 528 səh.
3. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. Menecment. Bakı: “Təhsil”, 2005, 1000 s.
4. Гасанов Г.С. Современные тенденции бизнес-менеджмента: взаимо-действие комплиментарности и ментальности: монография. – СПб.: Изд-во СПбГЭУ, 2019, – 127 с.

## AZƏRBAYCANDA COVİD-19 PANDEMIYA DÖVRÜ VƏ BU GÜN: TƏCRÜBƏ, REALLIQLAR, PERSPEKTIVLƏR

*Süleymanova Təranə Əhməd qızı, müəllim*
*Mingəçevir Dövlət Universiteti, Azərbaycan*

Covid-19 pandemiya dövrü insanların bütün həyat tərzinə, davranışına və fəaliyyətinə öz güclü təsirini göstərdi. COVID-19 pandemiyası Azərbaycana yayılmamış Nazirlər Kabineti yanında Operativ Qərargah, Azərbaycan Respublikasının Prezidentinin 2020-ci il 19 mart tarixli Fərmanı ilə “Koronavirusla Mübarizəyə Dəstək Fondu” yaradıldı. Burada məqsəd pandemiya ilə mübarizə aparmaq üçün həyata keçirilən tədbirlərə maliyyə yardımı etmək idi. Ölkə əhalisinin sağlamlığının qayğısına qalmaq, dünya standartlarına cavab verən tibbi yardımla təmin etmək ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin prioritet istiqamətərindən biri idi.

Azərbaycan Respublikasının Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli “Koronavirus (COVİD-19) pandemiyasının və bundan irəli gələrək dünya neft və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında” Sərəncamına əsasən 4 aprel 2020-ci il tarixində Tədbirlər Planı təsdiq edildi. Tədbirlər Planında üç əsas istiqamət üzrə olan “İqtisadi artıma və sahibkarlığa dəstək”, “Məşğulluq və sosial rifaha dəstək” və “Makroiqtisadi və maliyyə sabitliyinin təmin edilməsinə dəstək” proqramları nəzərdə tutuldu. Pandemiya dövründə dəstək paketlərinin içərisində sosial proqramlar xüsusi qeyd etmək lazımdır.

Pandemiya dövründə zərər çəkmiş sahibkarlara maliyyə dəstəyi göstərilmiş, əmək müqaviləsi əsasında muzdlu çalışan işçilərin əmək haqqının müəyyən hissəsi ödənildi. İşsiz qalanlara və qeyri-formal işləyənlərə yaşayış minimumu olan 190 manat məbləğində birdəfəlik müavinətlər (450 milyon manat) verildi. Həssas əhali qrupuna aid olan tələbələrin təhsil haqqı ödənildi.

Pandemiya dövründə insanların müvəqqəti və ya daimi yaşayış yerlərində, mənzillərində qalmalarına, nəzarət edilirdi. Azərbaycan pandemiya dövründə ən uğurlu strategiya seçən ölkələrdən biri oldu. Təhsil sahəsinə mənfi təsirlərin qarşısını almaq üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 yanvar 2020-ci il

tarixli 35s nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Planı"nın icrası ilə bağlı Təhsil Nazirliyi tərəfindən Tədbirlər Planı hazırlayıb həyata keçirməyə başladı. Tədris müəssisələri distant təhsil sisteminə keçdilər. Distant təhsilin çatışmazlıqları öyrənənlər və öyrədənlər arasında birbaşa canlı ünsiyyətin olmaması, praktik məşğələlərdə çatışmazlığın hiss olunması idi.

Bir çox insanlara distant təhsil ən gözəl çıxış yolu oldu, iş, təhsil fəaliyyətinin paralel aparılmasına imkan yaratdı. Təhsil sahəsində onlayn platformalarda reallaşan ölkədaxili və beynəlxalq səviyyəli konfranslar, seminarlar, yarışlar, yaradıcılıq müsabiqələri, sərgilər, "dəyirmi masa"lar və digər tədbirlər də həyata keçirildi. Texnologiyalardan istifadə, tədrisin açıqlığı, iqtisadi səmərə, məsafə, zaman məhdudiyyətinin olmaması, təhsilin kütləviliyi, əhatəliliyi, elastiklik, keyfiyyətli təhsilə əlyetənlik, əlillərin və xüsusi qayğıya ehtiyacı olan insanların təhsilalma imkanı və s. məsafədən təhsilin üstün cəhəti oldu.

Dünya ölkələrində olduğu kimi Azərbaycan da rəqəmsal sferanı, elektron alış-veriş sahəsini, onlayn ticarəti, ölkə xaricindən onlayn sifarişlər genişləndirdi. Cargo şirkətlər geniş vüsət aldı, Bu kimi şirkətlərin sayı il ərzində 60-70-ə yüksəldi, qeyri-nağd ödənişlərin çəkisi 50 faizdən çox artdı. Azərbaycanda bu göstərici təxminən pandemiyadan əvvəl 10 faiz təşkil edirdisə, pandemiya ərzində bir neçə dəfə artdı. Hazırda ölkəmizdə elektron ticarət inkişaf etməkdədir. 2022-ci ildə elektron ticarət vasitəsilə aparılan əməliyyatların həcmində artım müşahidə olunur. Azərbaycanda 2022-ci ilin I yarımilində elektron ticarət vasitəsilə aparılan əməliyyatların həcmi 38.9 milyon manat olmuşdur. Məlumat üçün qeyd edək ki, pandemiya başlayanda 2020-ci ilin I yarımilində bu göstərici 27,7 milyon manat idi.

Azərbaycanda pandemiya dövründə nağdsız ödənişlərin miqdarı artmışdır. Ödəniş kartlarının artması nağdsız ödənişlərin həcminə müsbət təsir göstərdi. Nağdsız ödənişlərin həcminin artması şəffaflığın artmasına səbəb olur. Belə ki, ölkədaxili nağdsız əməliyyatların həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,4 dəfə artıb. Bankların ödəniş xidməti şəbəkəsi üzrə dinamik artım müşahidə olunur.

Bütün sahələr kimi turizm sahəsi də pandemiya müddətində zərər görən sahələrdən biri idi. Sərhədlərin bağlı olması, təyyarə reyslərinin ləğv edilməsi turizmin inkişafına mənfi təsir göstərdi. Bu səbəbdən də ölkə ərazisinə gələn turistlərin sayında kəskin şəkildə azalma müşahidə olundu.

Ədəbiyyat:

1. Azərbaycan Respublikasının Mərkəzi Bankı, Statistik Bülleten, 2022.
2. Azərbaycan Respublikasının Prezidenti. URL: https://president.az/articles/36228
3. Əmək və sosial müdafiə sahəsində bu il aparılan işlər və qarşıda duran hədəflər müzakirə olunub. URL: https://www.sosial.gov.az/
4. Koronavirusla Mübarizəyə Dəstək Fondunun rəsmi internet saytı (http://covid19fund.gov.az/az/) fəaliyyətə başlayıb. URL: http://covid19fund.gov.az/az/
5. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi. URL:https://edu.gov.az/az/